**Dövlət Statistika Komitəsinin Əmək statistikası şöbəsi müdirinin müavini Nemət Xuduzadənin Sosial statistika üzrə məsləhət qrupunun ikinci görüşündə iştirakı haqqında**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndəsi Əmək statistikası şöbəsi müdirinin müavini Nemət Xuduzadə 2012-ci il iyun ayının 13-15-də BMT-nin Asiya və Sakit Okean ölkələri üçün İqtisadi və Sosial Komissiyasının (UNESCAP) Statistika üzrə Komitəsi tərəfindən sosial statistikaya dair regional səviyyədə Asiya və Sakit Okean ölkələrinə kömək məqsədilə strateji istiqamətlərin müəyyənləşdirilməsi, müvafiq metodoloji və əsas tövsiyələrin hazırlanmasına dair təkliflərin UNESCAP-ın Statistika üzrə Komitəsinə təqdim edilməsi üçün Sosial statistika üzrə mütəxəssislərdən ibarət məsləhətçi qrupunun üzvü kimi Tailandın Bankoq şəhərində keçirilən ikinci iclasda iştirak etmişdir.

Görüşdə qrupun üzvü olan 11 ölkənin, Avstraliya, Azərbaycan, Banqladeş, Butan, Çin, Hindistan, İndoneziya, İran, Monqolustan, Filippin, Sinqapur və 3 beynəlxalq təşkilatın (Beynəlxalq Əmək Təşkilatı, BMT-nin Narkomaniya və Cinayət üzrə İdarəsi və UNESCAP) mütəxəssisləri iştirak etmişlər.



Görüşün əsas məqsədi sosial statistikaya dair yenidən işlənmiş göstəricilər sistemi layihəsinin müzakirəsi, eyni zamanda, ölkədaxili (istehsalçı və istehlakçı arasında) və sosial statistik göstəricilərin istifadəçisi olan beynəlxalq təşkilatlarla məsləhətləşmələrin aparılmasının razılaşdırılması, məqsədlər və fəaliyyətlərə dair Statistika üzrə Komitənin Bürosunun rəy və təklifləri nəzərə alınmaqla, məsləhətçi

qrupunun qısa və orta müddətli iş planlarının müzakirəsi və onların UNESCAP-ın Statistika üzrə Komitəsinin müvafiq olaraq 2012-ci və 2014-cü illərin dekabrında keçiriləcək 3-cü və 4-cü sessiyalarına təqdim edilməsi və s. məsələlərdən ibarət olmuşdur.

Tədbirdə UNESCAP-ın Statistika Şöbəsinin direktoru son bir ildə məsləhətçi qrupun səmərəli fəaliyyəti haqqında geniş məlumat vermiş və bu dövrdə görülən işləri müsbət qiymətləndirmişdir.

"Sosial statistikaya dair göstəricilər sisteminin layihəsinin yenidən müzakirəsi" adlı sessiyasında göstəricilər sistemi layihəsinin təkmilləşdirilməsi, bu göstəricilərin digər əsas inkişaf göstəriciləri ilə əlaqələri, eyni zamanda milli hökumətlər tərəfindən bu layihənin təsdiq edilməsinə dair geniş müzakirələr aparılmış və 3 əsas məruzəçidən biri kimi Dövlət Statistika Komitəsinin nümayəndəsi göstərilən mövzuya dair məruzə ilə çıxış etmişdir.

Qəbul edilmiş gündəliyə uyğun olaraq, Dövlət Statistika Komitəsinin nümayəndəsi Nemət Xuduzadə "Ölkələrlə məsləhətləşmə strategiyasının və sosial statistikanın təkmilləşdirilməsi üçün regional proqramın inkişaf etdirilməsinə dair" növbəti seminara sədrlik etmişdir. Əsas təqdimatçı kimi Avstraliya, Sinqapur, Çin və Filippindən olan mütəxəssislər göstəricilər sisteminə dair ölkələrlə səmərəli məsləhətləşmələrin aparılması ilə bağlı məruzələr etmişlər. Bununla yanaşı, mövzu ilə bağlı geniş müzakirələr aparılmış və göstəricilər sisteminin metodologiyasının hazırlanması ilə bağlı razılıq əldə edilmişdir.

Üç gün davam edən görüşün sonunda məsləhətçi qrupunun qısa müddətli iş planının Statistika üzrə Komitənin 2012-ci ildə keçiriləcək 3-cü sessiyasına, orta müddətli iş planının isə 2014-cü illərin dekabrında keçiriləcək 4-cü sessiyalarına təqdim edilməsi razılaşdırılmışdır. Bununla yanaşı, rəy və təkliflərin bildirilməsi məqsədilə Sosial statistikaya dair göstəricilər sisteminin layihəsinin cari il iyul ayında bütün 56 region ölkələrinə göndərilməsi və təqdim olunan təkliflər məsləhətçi qrup tərəfindən müzakirə olunduqdan sonra UNESCAP-ın Statistika üzrə Komitəsinin dekabr ayında keçiriləcək 3-cü sessiyasına təqdim edilməsi barədə razılığa gəlinmişdir.